

■ Elvin ƏLİZADƏ

## DÜNYAYA VƏFASIZ DEMƏ!

Sən həyatı dərk eləmə
Eşqi dərk etdiyin kimi.
Dünyanı sən tərk edəssən
Məni tərk etdiyin kimi..
Dünyaya vəfasız demə!

Aşiq odur sevgisindən
Nə usana, nə daşına.
O Günəşi sevib, daim
Fırlanıb onun başına.
Dünyaya vəfasız demə!

Sən çəkdiyin qüssə-kədər
İnsanların kədəridir.
Onda nöqsan axtarma sən,
O Tanrının əsəridir.
Dünyaya vəfasız demə!

Vüsal budur - iki sevən
Ömür boyu qoşadırsa,
Sənə də öz qucağında
Yer verirsə, yaşadırsa,
Dünyaya vəfasız demə!

Çiynindəki qəm yükünü,
Daşımağı istəməsən,
Elvin, sən də bezib bir gün
Yaşamağı istəməsən,
Dünyaya vəfasız demə!

## QAR YAĞIR

Qarlı qış günüydü, önümə çıxdın,
Duruxdum gözümə sataşanda sən.
Hələ də qəlbimdə yeri görünür,
Gedəndə nə izlər qoyub getmisən...

Gör neçə il keçib, yenə də qışdır...
Bilirdim yağacaq qar əvvəl-axır.
Bütün pisliklərin, xəyanətlərin
Üstünü örtəcək əcəb qar yağır.

Qarı küçələrdən qovan küləklər
Elə bil keçmişə qaytarır məni.
Yenə də həmin qış, yenə həmin qar,
Yenə də gözlərim axtarır səni.

Səni xatırladır küçədən keçən
Mənə yad simalar, yad olan üzlər.
Yenə inistitut pəncərəsindən
Küçəyə boylanır yuxulu gözlər..

Elə soyuqlaşıb alovlu hisslər,
Buz olub bərkiyib, ərimir nəsə.
Sanki yoxluğunla zaman da donub
Donan əqrəblər də yerimir nəsə.

Bu sənsiz küçədə sənli xəyallar
Sənli günlərimin əmanətidir.
Bakıya qar yağır. heyif ki, o da
Gəlib-getməyintək müvəqqətidir!

## YAXŞI-PİS

Səbəb nədir dərk etdikcə həyatı,
Fanilikdən söz açırıq dünyada.
Sən məsləhət bilmisən ki, İlahi,
İstəmədən göz açırıq dünyada.

Bəlkə bilir bu dünyanın nəsi var,
Çıxır gedir o dünyaya gələn kəs.
O dünyanın yaxşısı var, pisi var,
Sən demisən, gedənlərdən gəlmir səs.

Mən yaxşı-pis bilən olsam əzəldən
Gələrdimmi nahaq olan dünyaya?
Mən yaxşı-pis bilən olsam gəlməzdim
Xeyirlə şər qonaq olan dünyaya.

İstəyimlə deyil, gedə bilmirəm!
Qaldıqca da tükənirəm, Allahım!
Mən yaxşı-pis ayırd edə bilmirəm,
Mən tək sənə güvənirəm, Allahım!

Hidayətdən məhrum etsən məni sən,
Kafirlərin ən kafiri olaram.
Nemət versən, düz yönəltsən məni sən,
Müti bəndən, yaxşı biri olaram!

Mən naşükür qul deyiləm, Ya Rəbbim!
Sən verdikcə söyləyəm ki, yenə ver.
Mən yaxşı-pis ayırd edə bilmirəm,
O dünyadan yaxşısını mənə ver.

## QƏZƏL

Yağdır, nola, ya rəb, yerə leysan yağışından,
Olsun susamış kəslərə ehsan yağışından.

Qəm yağsa da göydən yerə, söylə, nə qəm, ey kəs?
Çıxmışmı qəmin qupquru bir can yağışından?!

Ya rəb, ürəyim yansa da yoxdur su səpən kəs
Səhra ürəyim qaldı nigaran yağışından.

Vermə mənə cənnət, nə təmənna güdürəm mən?
Eşqin cücərib qəlbdə iman yağışından.

İslanmadayam, dön geri, öz çətrini tutsun
Vəslin qorusun aşiqi hicran yağışından.

Elvin bu yağışlar ilə islandı tamamən
Bundan belə yox qorxusu leysan yağışından.



kaspi.-2016.-19-21 noyabr.